Xalq qəzeti 2020.- 22 noyabr.- S.6.



# Azərbaycan təkcə Ermənistana yox, dünya erməniçiliyinə qalib gəldi

***Müsahibimiz Milli Məclis sədrinin müavini, tarix elmləri doktoru, professor Fəzail İbrahimlidir***

***– Fəzail müəllim, otuz illik mücadilədən sonra biz Böyük Qələbə qazandıq. 44 günlük bu müharibəni həm siyasətçi, həm də tarixçi-alim kimi necə dəyərləndirirsiniz?***

– Böyük Qələbə qazanmışıq. Bununla bağlı parlament iclasımız oldu. Həmin məqamda salonda, ilk dəfə olaraq, alnıaçıq, üzüağ qalib Azərbaycan parlamentarilərini gördüm. Özümü belə hiss etdim. Qalib dövlətin qalib parlamentariləri danışırdılar. Bu, böyük sevinc idi. İndi biz də onlar kimi, qalib dövlətin nümayəndələri olaraq, istənilən beynəlxalq tədbirlərdə, danışıqlar masasında güclü mövqeyə sahib olan siyasətçilər qismində iştirak edəcəyik.

Məlumdur ki, müharibənin sonunda ermənilər digər üç rayonumuzdan da çıxmaları barədə bəyanata imza atıblar. Lakin düşmən bu məğlubiyyəti heç cür həzm edə bilmir. Ona görə də, işğal etdikləri ərazilərimizdən çıxarkən evləri yandırırlar. Onlar həm də bilirlər ki, bu mülk, əmlak onların deyil. Kəlbəcərdə müvəqqəti məskunlaşdırılmış ermənilərin evlərə, təbiətə od vurması, onların daxilindən gələn nifrət alovudur. Qələbəmiz onları belə yandırıb-yaxdı. Ona görə də, hər cür bəd əmələ əl atmaqdan çəkinmirlər. Onlar cismani mövcud olsalar da, mənəvi cəhətdən pərt və yanmış vəziyyətdədirlər. Öz aləmlərində qələbə mifi, məğlubedilməz ordu imici yaratmışdılar. Hansı ki, bunların "qələbə"ləri bizə qarşı soyqırımlarıdır. XX əsrdə iki dəfə bizə qarşı soyqırımı, dəfələrlə mənfur hücumlar, təxribatlar, terrorlar törədənlər buna sanki vərdiş etmişdilər.

Azərbaycanın təqviminə diqqət yetirsək, qəribə mənzərə ilə qarşılaşmış olacağıq. 1990-cı il yanvarın 20-də baş vermiş qırğınlarda ermənilərin böyük rolu oldu. 1918-ci il mart soyqırımını kim törədib? Yenə ermənilər. Noyabrın 20-də vertolyot qəzası, Qaradağlı faciəsi, Xocalı soyqırımı, rayonlarımızın bir-birinin ardınca işğalı, yəni 12 aylıq təqvimimizin, demək olar ki, hamısında bunlarla bağlı bir mənfi tarixçəmiz, onların bizə vurduğu yaralar var. Lakin bu dəfə Azərbaycan Ordusu onlara elə bir dərs verdi ki, çətin ki, bunu yaddan çıxartsınlar. Biz həm də ailəmizin yanında üzüağ olduq.

Ana torpaq deyirik, ana laylası oxuyuruq. Bu ana laylasını oxuyanda, ana haqqında muğam dinləyəndə hər kəsin gözləri dolur. Mən buna



öz-özlüyümdə həm bəraət qazandırırdım, həm də təəccüblənirdim. Fikirləşirdim ki, ana laylasını, ana haqqında muğamı dinləyərkən ağlayanlar haqlıdırlar. Çünki ana torpaq dediyimiz ərazimizin bir hissəsi düşmən tapdağında idi. Qarabağın işğalına qədər mənim özünəməxsus düşüncəm var idi. Məsələn, Qarabağ bizim əlimizdə, biz Qarabağda yaşayırıq, amma harayımıza bax: Deyirdik ki, **Əzizinəm, Qarabağ, Şəki, Şirvan, Qarabağ, Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ.** Qarabağ bizim əlimizdədir, axı, bu, niyə yaddan çıxmalıdır? Bu misralar mənə həmişə təəccüblü gəlirdi. Amma Qarabağ işğal olunandan sonra dedim ki, nə yaxşı ki, bu musiqi, bu sözlər varmış. Nə yaxşı ki, Xan Şuşinski bu gözəl bayatını ifa edib. İndi, o mahnının sözləri elə bil öz yerini tutdu və Qarabağın yaddan çıxmaz bir yurd olduğunu da bir daha təsdiqlədi. Artıq əlimizdədir Qarabağ!

Bir məqamı da nəzərinizə çatdırım. Biz həmişə himn oxuyanda ayağa qalxırıq və deyirik: Azərbaycan, Azərbaycan! Bu ölkəmizdir, Vətənimizdir, müraciət edirik. Deyirik: **Ey qəhrəman övladın şanlı Vətəni.** Ürəyimdə bir nisgil məni incidirdi. Qəhrəman övladın şanlı Vətəni işğalda olmamalıdır. Bax, bu gün o qəhrəman övlad çıxdı döyüş meydanına, dünya arenasına millətin qarşısına gur səsi ilə komanda verdi. İrəli, Azərbaycan əsgəri! Həmin qəhrəman övlad xilas etdi Vətəni. Himndə oxuyuruq: **Səndən ötrü can verməyə cümlə hazırıq, qan tökməyə qadirik.** Amma canımızı qurban vermirdik, qan tökmürdük. Sual olunurdu: Bəs, nə zaman ? Axı, 30 il keçib. Nə zaman olacaq? Bax, indi hər bir Azərbaycan insanı o himni də çox qürurla oxuyacaq və mənasını dərk edəcək.

**Üçrəngli bayrağınla məsud yaşa!** Yaşa, Azərbaycan övladı. Baxın, bu Azərbaycan övladının gur səslə deyə biləcəyi sözlərdir. Himni yazanlar nakam getdi bu dünyadan. O himn 1920-ci ilin may ayında oxunmalı idi. Lakin işğal buna imkan vermədi. İndi o himni yazan düşüncə adamlarımızın da ruhu şaddır. Azərbaycan övladı himni oxumaqda indi həm də mənəvi haqq sahibidir. Himnimiz torpaqlarımızın, ərazi bütövlüyümüzün üzərində yerini tutur. Yaxud, poetik və emosional şəkildə deyirdik ki, biz Koroğlu nəsliyik. Yenə də deyirdim ki, necə axı ? Nə qədər Qarabağ işğaldadır, bu sözü deməyə haqqımız yoxdur. İndi ordumuz Koroğlu kimi nərə çəkib düşmən üzərinə getdi və adını dastanlaşdırdı. İndi bu sözü, o qəhrəman nəsildən olduğumuzu alnıaçıq şəkildə dilimizə gətirə bilərik.

***– Bu mücadiləmizdə bizim haqq işimizə müdaxilə etmək istəyən böyük qüvvələr də oldu. Biz, həm də onlarla mübarizə apardıq. Bu barədə nə deyə bilərsiniz?***

– Bilirsiniz, Azərbaycan təkcə Ermənistana yox, onun havadarlarına da qalib gəldi. Azərbaycan adı bu günə qədər dünya mediasında hələ bu qədər çəkilməmişdi. Dünyanın bütün qitələrində Azərbaycan adında məmləkət dillər əzbəri oldu, bu dövlətin ordusunun uğurlarını hər kəs izlədi. Eyni zamanda, dövlət başçımız dillər əzbəri oldu. Biz əks-hücum formulunu seçməklə, bu qalibiyyəti qazanmaqla, həm də erməniçiliyə qalib gəldik. Fransa kimi nüfuzlu bir dövləti əsir etmək istəyir bu erməniçilik. Fransa parlamentində erməni lobbisi çox güclüdür. Fransa Prezidentinin münasibətinin də şahidi olduq. Bu dövlət həm də Minsk qrupunun həmsədridir. Ermənilər hər vəchlə Fransanı bizə qarşı addımlar atmağa çağırırdılar. Onlar xristian təəssübkeşliyinə sığınaraq bundan istifadə etməyə çalışdılar. Doğrusu, onlar bundan 200 ildir ki, istifadə edirlər. Xristian dövlətlərinə özlərini məzlum, zəif kimi göstərə bilmişdilər və sığındıqları qaladan bizim başımıza iki əsrdir ki, güllə yağdırırdılar. Lakin bu dəfə alınmadı. Bu dəfə dünyanın tərəqqipərvər insanları, ermənilərin həqiqi mahiyyətini dərk etdi.

***– Belə çıxır ki, biz həm də erməni lobbisinə qalib gəlmişik...***

– Bilirsiniz, biz çox böyük qurbanlar vermək hesabına dövlətimizi qurmuşuq. Dünyada elə bir xalq vardırmı ki, mart ayında ona soyqırımı törətsinlər, lakin buna baxmayaraq, cəmi bir aydan sonra özünə dövlət qursun. Bu, yalnız Azərbaycan xalqıdır. 1990-cı il Yanvar faciəsi baş verir, göz yaşımız qurumamış biz müstəqillik əldə edirik. Xocalı soyqımı törədilir, biz qüvvələrimizi geri çəkirik, məğlubiyyətlə barışmırıq, düşmən bizi sarsıtmaq istəsə də, heç nə əldə edə bilmir. Biz güclənib onların üstünə yeriyirik və onların dinc sakinlərimizə qarşı istifadə etdiyi hərbi qüvvələrini, illər sonra da olsa, məhv edirik. Deməli, biz 100 ildən çoxdur ki, savaşdığımız erməniçilik mərəzinə qalib gəlmişik. Dünya erməni lobbisi nə etsə də, xeyri olmadı. Onların arxasında duran güclərə 10 milyonluq əhalisi, 86 min kvadratkilometrlik ərazisi olan kiçik bir dövlət görün necə mətinliklə duruş gətirdi. Görün, biz hansı dövlətlərə, erməni lobbilərin əlində oyuncağa çevrilən hansı siyasətçilərə qarşı duruş gətirdik. Hansı ideologiyaya qarşı uğurla döyüşdük! Şah İsmayıl Xətainin yaratdığı Azərbaycan Səfəvilər Dövləti, 23 aylıq AXC və bu qələbəmiz tariximizin ən böyük uğurlarındandır. Azərbaycanı sevməyən qüvvələr, xüsusilə, erməni lobbisi bu qələbəmizdən dəli olmaq səviyyəsinə gəliblər. Onlar paxıllıq hissindən sanki alışıb-yanırlar. Dostlarımız, tərəfdaşlarımız isə böyük sevinc içərisindədir.

***– Biz tək döyüş meydanında deyil, həm də informasiya arenasında müharibə apardıq. Düşmənin informasiya blokadasını yara bildik...***

– Mən 10 il beynəlxalq təşkilatlarda Azərbaycanı təmsil edən nümayəndə heyətinin üzvü olmuşam. Bu beynəlxalq təşkilatların çıxardığı bütün qərarlarda ikilistandart münasibətləri olub. Bu, bizi çox qəzəbləndirirdi. Ona görə ki, gözümüzün içinə baxa-baxa yalan danışan, heç bir əxlaqa sığmayan işğalçı siyasət yürüdən bir düşmənlə üz-üzəydik. Biz özümüzü necə müdafiə etməliydik? Bizi bu cür düşməndən uzaq tutmaq üçün beynəlxalq birlik heç bir addım atmırdı. Biz özümüzü müdafiə etdik və qalib gəldik. Amma yenə də bizə qarşı gələnlər oldu. Bizi bu yolumuzdan çəkindirmək üçün xeyli əmək sərf etdilər. Erməni təbliğat maşını çalışırdı, amma bu dəfə informasiya müharibəsində də biz qalib gəldik. Nə yaxşı ki, cənab İlham Əliyev Prezidentdir, nə yaxşı ki, onun güclü siyasi iradəsi var. 44 gün ərzində 30 dəfədən çox müsahibə verərək bütün qərəzli siyasətçilərin məkrli planlarını alt-üst etdi, dünya ictimaiyyətini Azərbaycanın haqq savaşına inandırdı.

***– Dağlıq Qarabağın azərbaycanlı icmasının taleyi barədə soruşmaq istəyirəm. Dövlət başçısı məsələni qəti şəkildə qoydu ki, artıq Dağlıq Qarabağın heç bir siyasi statusundan söhbət gedə bilməz.***

– Bu məsələyə müxtəlif yanaşmalar var. Cənab Prezidentin də qeyd etdiyi kimi, ermənilər gəlib yaşaya bilərlər. Heç bir statusu olmadan Azərbaycan vətəndaşı kimi yaşaya bilərlər. Azərbaycanda ruslar yaşayırlar, rus icması var. Bu icma siyasi status deyil. Bu icmalar müəyyən ictimai-məişət məsələləri ilə məşğul ola bilər. İndi orada ermənilər yaşayacaqsa, onlar da, hansısa icma yarada bilər və məişət məsələlərini həll edə bilərlər. Lakin bu icma siyasi məsələlərlə məşğul ola bilməz. Onların, belə deyək, toy, yas mərasimlərini koordinasiya edə bilər. Hansısa məsələlərdə birgə koordinasiya üçün lazımdır. Prezident də bildirdi ki, heç bir status olmayacaq. Status olmayanda da bir sıra islahatlara ehtiyac olacaq və zamanı gələndə onun da həlli yolları düşünüləcək. Bu gün mənim tələskən açıqlamam doğru olmaz ki, gəlin hər şeyi sıfırdan başlayaq, bunların heç biri olmasın və s. Dövlətin bu barədə strateji xətti, düşünülmüş siyasəti var. Bizim istək və arzularımız da öz yerini tapar. Bir halda ki, status-kvo yoxdursa, vətəndaşlarımız orada bir icma yarada bilərlər, burada problem yoxdur. Lakin Dağlıq Qarabağ icması orada muxtar vilayət olanda yaşayan iki millətin nümayəndələrinə erməni və azərbaycanlılara şamil edilirdi. Onların içində buna ehtiyac var idi. İndi hadisələri qabaqlamağım doğru olmaz. Çox güman ki, bu barədə dövlət başçımızın bir planı olacaqdır.

***Müsahibəni aldı:***
***Anar TURAN,***
***"Xalq qəzeti"***